# "Yaşamaq üçün doğulmuşdular!"

## Bədii kompozisiya Xocalı şəhidlərinin xatirəsinə həsr olunmuşdu

**Ermənilərin 1992-ci il, fevral ayının 26-da Xocalıda həyata keçirdikləri soyqırımın 25-ci ildönümü Niderland Krallığında da silsilə tədbirlərlə qeyd edilib. Niderlandda fəaliyyət göstərən 5 diaspora təşkilatı - "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyi, "Odlar Yurdu" Cəmiyyəti, Niderland Azərbaycan Türk Kültür Dərnəyi, "Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik" Cəmiyyəti və Avropa Azərbaycan Dostları Mərkəzinin birgə hazırladıqları "Yaşamaq üçün doğulmuşdular!" adlı bədii kompozisiyası fevralın 26-da ölkənin ikinci böyük şəhəri olan Haaqada baş tutub. Tədbirə Azərbaycan Niderland Türkiyə Kültür Dərnəyinin təşəbbüsü ilə Haaqada Xocalı qurbanlarının əziz xatirəsinə qoyulmuş Monumenti ziyarət etməklə start verilib.**

Sonra tədbirin ikinci hissəsi "Yaşamaq üçün doğulmuşdular!" bədii kompozisiyası Valliant teatr binasında baş tutub. Tədbiri aparıcılar yazıçı-jurnalist Elnaz Ağaxan və Aydəmir Çətin Xocalı haqqında giriş sözləri ilə açıb. Xocalı şəhidlərinin ruhu 2 dəqiqəlik sükutla anıldıqdan sonra "Haaqa-Azərbaycan Məktəbi"nin və bütün iştirakçıların ifasında Azərbaycan Respublikasının və Niderland Krallığının Dövlət Himnləri səsləndirilib və uşaqların ifasında Azərbaycan dilində "Lay-lay Xocalım!" və Holland dilində "Nooit meer oorlog!"(Heç bir zaman müharibə olmasın!") adlı şeirlər səsləndirilib. Sonra "Odlar Yurdu" Cəmiyyətinin sədri Firəngiz Bağırovanın Xocalı faciəsinin baş verdiyi o qanlı və şaxtalı fevral gecəsi haqqında yazdığı "Bir gecənin sirri" adlı hekayəsi əsasında hazırlanmış səhnəcik nümayiş etdirilib. Anım tədbirinə Azərbaycandan gəlmiş, Xocalı faciəsinin şahidi, anasını o qanlı gecədə itirmiş yazıçı-jurnalist, "Erməni Təcavüzünün Tanıdılması" İctimai Birliyinin sədri Səriyyə Müslümqızı zalda oturanlarla öz acı xatirələrini bölüşüb və onun xatirələri əsasında hazırlanmış "Onlar heç vaxt böyüməyəcəklər" adlı sənədli film də nümayiş etdirilib. Tədbirdə Azərbaycan Respublikasının Niderland Krallığında fəaliyyət göstərən səfirliyinin müvəqqəti işlər vəkili Aliyə Ağazadə də çıxış edərək Xocalı faciəsinin bütün Azərbaycan xalqının acısı olduğunu bildirib və bu qanlı tarixin bir daha təkrarlanmaması istəyini dilə gətirib. Azərbaycan Dövlətinin və xalqının daim sülh tərəfdarı olduğunu, məsələnin dinc yolla həll ediləcəyinə inandığını qeyd edib. Eyni zamanda bu tədbiri hazırlayan 5 diaspora təşkilatına birlik nümayiş etdirərək belə gözəl tədbiri reallaşdırdıqlarına görə təşəkkürünü bildirib. Sonra isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Xocalı faciəsinin 25 illiyi ilə əlaqədar Bəyanatını həm Azərbaycan, həm də ingilis dillərində oxuyaraq iştirakçıların diqqətinə çatdırıb. Tədbiri hazırlayan 5 təşkilatın sədrləri də çıxış edərək bütün iştirakçılara təşəkkürlərini bildiriblər. Avropa Azərbaycan Dostları Mərkəzinin sədri Leyla Babayeva çıxışında bu ili Xocalı faciəsinin 25 illiyi ilə əlaqədar təşkilatlarının "Xocalı ili" elan etdiyini xüsusi vurğulayıb və bildirib ki, 2017-ci ildə təşkilatlarının həyata keçirəcəyi bütün layihələr Xocalı faciəsinə həsr olunacaq. Bundan başqa L.Babayeva bütün azərbaycanlıların və diaspora təşkilatlarının ermənilər tərəfindən məhkəməyə verilən İlhan Aşkına dəstək olduqlarını və bu haqq işində onu yalnız buraxmayacaqlarını bildirib. Bu məqsədlə də imza toplandığını diqqətə çatdırıb. Sonda Xocalı faciəsinin bir genosid aktı olmasının dünya ictimaiyyəti və yüksək qurumlar tərəfindən tanınmasını tələb edən Qətnamə (Petisiya) qəbul edilərək müəyyən instansiyalara göndərilmək üçün qərar qəbul edilib və iştirakçılar tərəfindən imzalanıb.



Azərbaycandan gələn nümayəndə heyəti Hollandiyada fəaliyyət göstərən diaspora təşkilatları ilə görüşüb Bildiyiniz kimi, artıq bir həftəyə yaxındır ki, azərbaycanlı nümayəndə heyəti Belçika-Azərbaycan Dostluq Cəmiyyəti və Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzi (ATXƏM) QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə Xocalı faciəsinin 25-ci ildönümü ilə əlaqədar olaraq Avropanın siyasi mərkəzi hesab olunan Brüssel şəhərindədir. Bu müddət ərzində coxlu sayda tədbirlər həyata keçirilib. Tədbirlərdə iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibi Prezident Administrasiyasının sektor mudiri Qafar Əliyev, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, ATXƏM-in sədri İlham İsmayilov, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli və ATXƏM-in icra katibi İlqar İlkindən ibarətdir. Fevralin 25-də isə nümayəndə heyəti Niderland Kralliğinin ikinci böyük şəhəri olan Haaqada fəaliyyət göstərən diaspora təşkilatları ilə görüşüb. İlk öncə onlar Azərbaycan-Türk Kültür Dərnəyinin ofisində toplanıblar. Ziyarətin əsas səbəbi dərnəyin başqanı İlhan Aşkına dəstək vermək olub. Bildiyiniz kimi, 2 il öncə Hollandiyanın Almelo şəhərində ermənilər tərəfindən qondarma genosid xatirə-abidəsinin açılışına etiraz olaraq hazırladığı mitinqdə İlhan Aşkının "Qarabağ ermənilərə məzar olacaq!" şüarını səsləndirməsi erməniləri möhkəm qəzəbləndirib və iş məhkəməyə qədər gedib çıxıb. Hal-hazırda İlhan Aşkının məhkəmə prosesi davam edir. "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin mətbuat xidmətindən verilən xəbərə görə, Belçika-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Ayhan Dəmirçinin və eləcə də Hollandiyada fəaliyyət göstərən "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin sədri Mayisə Ağamirzəyevanın, "Odlar Yurdu" təşkilatının sədri Firəngiz Bağırovanın və digər aktivlərin də qatıldığı görüşdə bütün iştirakçılar İlhan Aşkına dəstək olduqlarını, onu bu mübarizədə yalnız qoymayacaqlarını, əllərindən gələn yardımı edəcəklərini bildiriblər. Sonra nümayəndə heyəti "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin ofisinə gedib və birliyin nəzdində fəaliyyət göstərən N.Gəncəvi adına həftəsonu "Azərbaycan məktəbi"nin işi ilə tanış olublar. Məktəbin şagirdlərinin Azərbaycan haqqında bilikləri, ifa etdikləri Azərbaycan Respublikasının himni, Xocalı və Azərbaycan haqqında söylədikləri şeirlər nümayəndə heyətində xoş təəssüratlar yaradıb. Birliyin sədri M.Ağamirzəyeva təşkilatın yaranma tarixi, birliyin aktivləri, bu illər ərzindəki fəaliyyətləri, eləcə də Xocalı faciəsinin 25 illliyi ilə əlaqədar hazırladıqları tədbir haqqında geniş məlumat verib. Hollandiyada fəaliyyət göstərən təşkilatların işləri ilə tanış olan millət vəkili Ə. Amaşov görüşdə bildirib ki, qərib ölkələrdə fəaliyyət göstərən hər bir təşkilat və ya fərdi şəxsin gördüyü işləri Azərbaycan dövləti və xalqı böyük qiymətləndirir. PA-nın sektor mudiri Q.Əliyev də diaspora fəaliyyətinin vacibliyini vurğulayaraq bildirib ki, Azərbaycan Diasporası yaşının gənc olmasına baxmayaraq, artıq böyük təcrübə qazanıb və dünyanın bütün ölkələrindən səsini duyurur. O, eləcə də qeyd edib ki, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması üçün xaricdə yaşayan azərbaycanlıların üzərinə böyük məsuliyyət düşür.

**Bu mübarizədə təkcə siyasi vasitələrdən istifadə etmək kifayət deyil, mədəniyyətimizin, mətbəximizin, adət-ənənələrimizin də təbliginə geniş yer verilməlidir. ATXƏM-in sədri İ.İsmayilov isə diasporaçılıq fəaliyyətində ən çox yeni nəslin milli ruhda yetişdirilməsinin önəmini vurğulayaraq "Ana Vətən"in Azərbaycan məktəbini yaratmasını təqdirəlayiq layihə hesab etdiyini bildirib. Onun fikrincə, yad bir dildə təhsil alan, danışan azərbaycanlı uşağının mənəvi və milli ruhunun formalaşmasında bu formaların təsir gücü inanılmazdır.**

**Nərgiz Cəfərova**